# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA MƏTBUATIN DEMOKRATİK İNKİŞAF PRİNSİPLƏRİ


## РЕЗЮМЕ

В статье описана роль Гейдара Алиева в развитии средств массовой информации в Азербайджане. Представленны примеры о дружеском взаимоотношении сложившиеся в свое время между журналистами и Гейдар Алиевым, который выслушивая проблемы в отношении Средств массовой информации, способствовал их быстрому решению.

## SUMMARY

Heydar Aliyev was the main figure who takes a great place in the development of press in Azerbaijan. This article comprises general information about Heydar Aliyev . who had always friendly attitude with the journalists, who also listening them and always helped them to solve their problems


Heydər Əliyev Azərbaycan müasir tarixinin ən böyük şəxsiyyətlərindən biridir. Onun çoxşaxəli siyasi-ictimai fəaliyyəti həm ölkə müstəqilliyinin, həm də demokratik prinsiplərin möhkəmlənməsində böyük rol oynamışdır. Bütün məsələlərdə xalqını düşünən ulu öndər cəmiyyətin inkişafında mətbuatın danılmaz rolu olduğunu yaxşı başa düşürdü. Məhz bu baxımdan hər zaman mətbuata dayaq olan H.Əliyev Azərbaycan mediasının demokratik prinsiplər əsasında yüksəlməsinə əsaslı töhfələr vermişdir. Ümumilli lider Heydər Əliyev Azərbaycan mətbuatının böyük dəstəkçilərindən olub. Müdrik rəhbər həm sovetlər birliyi dönəmində, həm də müstəqillik illərində jurnalistləri daim diqqət mərkəzində saxlayıb. Azərbaycanda

sağlam və peşəkar mətbuatınn formalaşmasında ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətləri olub. O hələ dövlət təhlükəsizlik orqanlarında çalışdığı illərdə, Azərbaycan Kommunist Partiyası MK-nin birinci katibi olarkən mətbuatla sıx əlaqələrin qurulmasında yaxından iştirak edirdi. Bu ondan irəli gəlirdi ki, Heydər Əliyev hər zaman mətbuatın insanlar üzərindəki təsir gücünü, onları təşkilatlandırmaq imkanlarını çox gözəl anlayırdı. Elə bu səbəbdəndir ki, 70-80 illərin qarışıq dövrlərində belə cəmiyyəti düşündürən, narahat edən bütün problemlər məhz onun şəxsi təşəbbüsü ilə bu və ya digər formada mətbuata çıxarılırdı. Heydər Əliyev özü bu barədə deyirdi : «Sovet hakimiyyəti vaxtında bizdə bir mətbuat - kommunist mətbuatı vardı. Mən həmişə bu mətbuatı bizim nöqsanları araşdırmaq, aşkara çıxarmaq istiqamətində yönəldirdim. Çünki biz işdəki nöqsanların hamısını aşkara çıxara bilmirdik»(1).Dahi şəxsiyyət bu mənada mətbuatın gücünə inanırdı və elə bu səbəbdən də mətbuatdan çox şey umurdu. Mətbuata göstərilən qayğı, söz və fikir sərbəstliyini təmin etmək xətti ulu öndər Heydər Əliyevin ölkə rəhbərliyinə ikinci dəfə qayıdışından sonra yeni müstəvidə davam etdirildi. Həmin dövrdə Azərbaycan üçün son dərəcə vacib olan ifadə azadlığının möhkəmlənməsi, milli mətbuatın formalaşması prosesi zəruri idi. Azərbaycanda söz və məlumat azadlığının, fikir plüralizminin bərpa olunmasının dövlət siyasətinin tərkib hissəsi kimi gündəmə gəlməsi ümumilli liderimiz Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Heydər Əliyevin 1993-cü ildə xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdışından sonrakı dövrdə Azərbaycan mətbuatının birinci intibah dövrü başlandı. Filologiya elmləri doktoru, professor Cahangir Məmmədli «Prezidentin jurnalistika dərsləri» adlı məqaləsində qeyd edirdi : «Azərbaycanda yeni müstəqillik çağının və yeni Azərbaycan arxitektoru vəzifəsini çiyninə götürən H.Əliyev , ilk növbədə, ölkədə söz və mətbuat azadlığının dönməz təminatçısına çevrildi. Ulu öndər dərhal bəyan etdi : «Azərbaycanda mütərəqqi mətbuat ənənələrinin qorunub inkişaf etdirilməsi, müasir beynəlxalq təcrübə ilə zənginləşdirilməsi, kütləvi informasiya vasitələrinin imkanlarından

ölkəmizdə hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşdırılması, demokratik islahatların həyata keçirilməsi, Azərbaycan dilinin inkişafı sahəsində düzgün istifadə edilməsi dövlət siyasətinin əsas istiqamətlərindəndir «. (2) Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan mətbuatının birinci intibah dövrü başlandı. Respublikada ictimai-siyasi sabitliyin bərqərar olması, vətəndaşların təhlükəsizlik təminatının və qanunvericiliyin gücləndirilməsi, sosial-iqtisadi problemlerin həlli istiqamətində ciddi addımların atılması KİV-in fəaliyyəti, söz və mətbuat azadlığının müdafiəsi sahəsində də əsaslı irəliləyişlərin əldə olunmasına şərait yaratdı. 1995-ci ildə ümumxalq referendumu ilə qəbul edilən Azərbaycan Konstitusiyasında ölkə vətəndaşlarının təhlükəsiz yaşamaq, söz, fikir, vicdan azadlığı təsbit edildi. Hələ 1995-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi ərəfəsində onun memarı, yaradıcısı ulu öndər Heydər Əliyevin səyləri ilə insan və vətəndaş hüquq və azadlıqlarının, sərbəst düşüncə, dini etiqad və məslək azadlığının təmin olunması istiqamətində xüsusi maddələr əlavə edildi. Onun ölkəyə rəhbərlik etdiyi dönəmdə media sektorunun inkişafına, söz və fikir azadlığının təmin olunmasına fundamental töhfələr bəxş edən ciddi addımlar atıldı. 1998-ci ildə ümumilli lider tərəfindən imzalanan «Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında» fərmana müvafiq surətdə həyata keçirilən işlər KİV-lərin fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinin artırılmasına münbit şərait yaratdı. Həmin fərmanla Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv edildi, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün infomasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşmüş hesab olundu. 6 avqust 1998-ci ildə ölkədə mətbuat üzərindəki senzura ləğv edildi. Azərbaycanda müstəqil və demokratik mətbuatın inkişafı üçün yeni imkanlar açıldı. Dahi liderin təkcə ölkəmizdə mətbuatın inkişafında deyil, eyni zamanda regionda mətbua-

tın inkişafında misilsiz rolu olub. Hal-hazırda ölkəmizin bütün sahələrində olduğu kimi, mətbuata da daim diqqət və qayğı ilə yanaşılır. Ulu öndər Heydər Əliyevin təsdiq etdiyi 1998-ci il 22 iyun tarixli « İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı» isə vətəndaşların Azərbaycan Konstitusiyasında əksini tapmış söz, mətbuat və fikir azadlıqlarının təminatına əlverişli imkanlar açdı. Həmin dövlət proqramından az sonra Azərbaycan Respublikasının Prezidentinin 1998-ci il 6 avqust tarixində imzaladığı «Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında» fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım oldu. Fərman, eləcə də kütləvi informasiya vasitələri əməkdaşlarının beynəlxalq mərkəzlərin tədqiqat və təhsil proqramlarında, beynəlxalq konfrans, seminar və digər tədbirlərdə iştirakı üçün geniş şərait yaradılmasını nəzərdə tuturdu. Həmin fərmanla 1966-cı il 27 oktyabr tarixində yaradılan Azərbaycanın bütün informasiya vasitələri üzərində senzura fəaliyyəti həyata keçirən «Qlavlit» həmişəlik ləğv olundu. Heydər Əliyevin mətbuatın demokratikləşməsi istiqamətində təşəbbüsü əsasında 19 iyun 1998-ci il tarixli « Məlumat azadlığı haqqında», eyni ilin aprelin 3-də « İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» , 2002-ci ilin 11 may və 12 mart tarixlərində müvafiq olaraq, «Kütləvi informasiya vasitələri haqqında» və «Ətraf mühitə dair informasiya almaq haqqında» Azərbaycan Respublikası qanunlarının qəbulu önəmli addımlardan oldu. 2000-ci ilin 6 mart tarixli fərmanla isə «2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün tədbirlər planı» təsdiq olundu.(3) Bu plan jurnalist kadrlar hazırlayan təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, kütləvi informasiya vasitələrinin istehsalı və yayımı ilə əlaqədar problemlərin həlli məqsədilə Əlaqələndirmə Şurasının yaradılmasını önə çəkirdi. Jurnalistikanın inkişafı və demokratikləşməsi istiqamətində atılan addımlardan biri də Mətbuat Şurasının yaradılması oldu. Əsas istiqamət kimi

mətbuatın özünütənzimləmə mexanizmi seçildi. Şura 2003-cü ilin martında keçirilən «Jurnalistlərin I qurultayı»nda azad şəkildə formalaşaraq fəaliyyətə başladı. Eyni zamanda Mətbuat və İnformasiya Nazirliyi də ləğv edildi. Bu baxımdan kütləvi informasiya vasitələrinin təsis olunmasında və informasiya toplamaq, yaymaq sahəsindəki bəzi süni əngəllər də tam olaraq aradan qaldırıldı. Ümumilli liderin 11 may 2002-ci il tarixli «Kütləvi informasiya vasitələri haqqında» qanuna əlavə və dəyişikliklər etməsi bu sahədə liberallığı tam təmin etdi, mətbu nəşrlərin dövlət qeydiyyatı ilə bağlı icazə sistemini ləğv etdi. 2000-ci ildə ölkəmizdə mətbuatın inkişafına hədəflənən «Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi» haqqında fərmanla mətbuatımızın 125 illiyi təntənəli formada qeyd olundu. Ümumilikdə, ulu öndər mətbuatın problemlərinin həlli ilə bağlı bir çox sərəncam və fərmanlar imzalamışdır. H.Əliyev mətbuatın nəzəri məsələlərini yaxşı bilən və onu yeni şəraitdə inkişaf etdirən bir liderdir. Bu mənada o, iki istiqamətdə fəaliyyət göstərirdi : Birincisi, Azərbaycanı dünya miqyasında tanıtmaq üçün xarici müxbirlərlə işləyərdi, ikincisi, Azərbaycan jurnalistika məkanında Qərb standartlarının tətbiqinə şərait yaradırdı. Habelə, hökumətə KİV sahəsində beynəlxalq konvensiyalara qoşulmağı tapşırırdı. Ümumilli Lider bu fərmanla KİV sahəsində qanunvericilik aktlarını təkmilləşdirməyi və yeni müvafiq qanunlar yaratmağı bir vəzifə kimi qarşıya qoyurdu. H.Əliyev jurnalistlərlə tez-tez görüşlər keçirir, onların problemlərini dinləyir və tədbirlər görürdü. O, dünya tarixində mətbuata ən açıq prezidentlərdən biri idi. Jurnalistlərlə açıq danışar, onları narahat edən məsələlər ətrafında sərbəst fikir mübadiləsi yaratmağa imkan verərdi. Məhz bu baxımdan ümumilli lider «Jurnalistlərin dostu» fəxri adına layiq görülmüşdür(4).

## ƏDƏBİYYAT

1.Cəbiyev Q. Heydər Əliyev və Azərbaycan mətbuatı «Xalq qəzeti» , 2010 2.Məmmədli C. Prezidentin jurnalistika dərsləri. «Naşir» jurnalı, 2014

3. Rəhimzadə V. «Mətbuat,söz və fikir azadlığını təmin edən islahatların müəllifi» Xalqqəzeti08.05.2015
4. «Kaspi» qəzeti «İlham Əliyev - jurnalistlərin yaxın dostu və namizədi» 17.09.2013
M.Mahmudov .dos: Elmi rəhbər

***Füruzə ƏHMƏDİYƏZADƏ***